**“Azər-Türk Bank” Açıq Səhmdar Cəmiyyəti**
**AÇIQ TENDER ELAN EDİR**

Tenderin adı: **45 ( qırx beş ) ədəd ADM terminalının satınalması**

**Tenderin elan tarixi: 19.08.2026-cı il**

“Azər-Türk Bank” Açıq Səhmdar Cəmiyyəti ilə əməkdaşlıq etmək üçün saytda yerləşdirilmiş Məlumat Sorğusunun doldurulması və qeyd edilən elektron ünvana göndərilməsi mütləqdir. Yalnız bundan sonra “etibarlı təchizatçılar siyahısı”-na daxil olmaq mümkündür. Nəzərinizə çatdırırıq ki, “Azər-Türk Bank” Açıq Səhmdar Cəmiyyəti bütün satınalma müqavilələrini yalnız daxili “etibarlı təchizatçılar siyahısı”-nda olan şirkət və fərdi sahibkarlarla bağlayacaqdır.

**İştirak haqqı: 450 AZN**

İştirak haqqı aşağıdakı bank rekvizitləri üzrə həyata keçirilməlidir:

**“Azər-Türk Bank” Açıq Səhmdar Cəmiyyəti**

VÖEN: 9900006111
KOD: 507699
M/h: AZ02NABZ01350100000000022944
H/H: AZ15AZRT45270019440000001999
SWİFT: AZRTAZ22

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İştirakçılar, iştirak haqqını ödədiklərinə dair qəbzi təqdim etdikdən sonra, Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Nəsimi rayonu, C.Məmmədquluzadə küçəsi, 85: 192/193 nömrəli ünvanından və ya mail ilə müraciət edərək (tender@atb.az) ala bilərlər.

Tender iştirakçılarından tələb olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

**Tenderdə iştirak üçün təqdim ediləcək sənədlər:**

- tenderdə iştirak etmək üçün yazılı müraciət (ərizə);
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi **tender zərflərinin açıldığı tarixdən (25 avqust 2026-cı il) sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır;**
- iddiaçının Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin olmaması haqqında müvafiq vergi orqanından arayış;
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının son üç ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti haqqında bank arayışı;
- iddiaçının müflis olmaması, mülkiyyəti üzərinə məhkəmə qərarı ilə həbs qoyulmaması, kommersiya fəaliyyətləri dayandırılmaması və bu növ məhkəmə-hüquq prosedurlarına məruz qalmaması barədə arayış;
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və bank rekvizitləri;
- iddiaçının öz mülahizəsinə uyğun digər sənədlər.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri **24 avqust 2026-cı il saat 15:00-a qədər** Bakı şəhəri, Nəsimi rayonu, C.Məmmədquluzadə küçəsi, 85: 192/193 nömrəli ünvana təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **25 avqust 2026-cı il saat 11:00-da** Bakı şəhəri, Nəsimi rayonu, C.Məmmədquluzadə küçəsi, 85: 192/193 nömrəli ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər. <u>İştirak edən nümayəndələr səlahiyyətlərini təsdiq edən sənədi (etibarnamə) mütləq şəkildə təqdim etməlidirlər.</u>

**Satınalma Komissiyası**